# Müasir dünyada unikal müttəfiqlik modeli

*"Bu gün Türkiyə və Azərbaycan - iki qardaş ölkə nəhəng layihələr reallaşdırır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP kimi neft-qaz boru xətləri layihələri nainki ölkələrimizi birləşdirdi, eyni zamanda Avrasiyanın enerji xəritəsini dəyişdirdi. Bu gün Azərbaycandan Türkiyə ərazisindən gedən qaz bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir. Keçən il Azərbaycanın qaz ixracatı 25 milyard kubmetrə çatmışdır. Onun təxminən yarısı Türkiyəyə olan ixracatdır və Türkiyədən başqa da 11 ölkə, onlardan 10 Avropa ölkəsi Azərbaycan qazını alaraq öz enerji təhlükəsizliyini gücləndirir". Bu fikirləri Prezident İlham Əliyev İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılışında bildirib. Dövlət başçısı vurğulayıb ki, bu layihə Naxçıvanın enerji təhlükəsizliyini təmin edəcək. Çünki Azərbaycandan gələn qaz Türkiyə ərazisindən svop şəklində Naxçıvana ötürüləcək bu problem həll olunacaq.*



## *Azərbaycan və Türkiyə enerji sahəsində həyata keçirdikləri nəhəng layihələrlə Avrasiyanın enerji xəritəsini dəyişdirən strateji tərəfdaşlardır*

Dünyaya nümunə olan, daim güclənən Azərbaycan-Türkiyə münasibətləri inkişaf edir, əməkdaşlığın yüksək səviyyəsi hərtərəfli əlaqələrin gücündən və sarsılmazlığından xəbər verir. İki qardaş ölkə arasında siyasi dialoq ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra daha da möhkəmləndi, Prezident İlham Əliyevin dövründə isə ən yüksək səviyyəyə çatdı. 2010-cu ildə imzalanan Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım Müqaviləsi ikitərəfli əməkdaşlıq formatının əsasını qoydu. 15 iyun 2021-ci ildə isə imzalanan Şuşa Bəyannaməsi Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətlərini rəsmi şəkildə təsdiqlədi. Şuşa Bəyannaməsi Azərbaycanın təhlükəsizliyində Türkiyənin zəmanətçi rolunu daha da gücləndirdi və bu iki ölkəni hərbi-siyasi müttəfiqlərə çevirdi.

Onu da qeyd edək ki, Türkiyə apardığı xarici siyasətlə bir dövlət kimi Osmanlı dönəmindən indiyə qədər özünün ən uğurlu dövrünü yaşayır. Uzaqgörən xarici siyasətlə bu güc getdikcə daha da artır. Regional problemlərin həlli yolunda iki qardaş ölkə məsləhətləşmələr aparır. Türkiyə və Azərbaycan Avrasiya məkanında Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən böyük nəqliyyat habına və enerji resurslarının daşınması mərkəzinə çevrilməyi hədəfləyir. Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycan və Türkiyə əsas oyunçular sırasına daxil olub. Rusiya qazına tətbiq edilən sanksiyalardan sonra Azərbaycan Avropa İttifaqının əsas alternativ qaz tədarükçüsünə çevrilib. 2023-cü ildə Azərbaycanın Avropaya qaz ixracı 11 milyard kubmetr təşkil edib və 2027-ci ilə qədər bu rəqəmin 20 milyard kubmetrə çatdırılması planlaşdırılır.

**(davamı 2-ci səhifədə)**

(əvvəli 1-ci səhifədə)

İğdır-Naxçıvan təbii qaz kəmərinin açılışı isə iki qardaş ölkənin birgə səylərinin növbəti uğurudur. Azərbaycan və Türkiyənin Avrasiyanın nəhəng nəqliyyat və enerji daşımaları mərkəzinə çevrilməsi onları indi daha böyük gücə çevirir. Bakı ilə Ankaranın qardaşlığı yeni mərhələyə qədəm qoyaraq siyasət, iqtisadiyyat, müdafiə və enerji də daxil olmaqla, bütün sahələri əhatə edir. Azərbaycanın həm neft, həm də qaz resurslarının dünya bazarlarına çıxarılması Gürcüstan və Türkiyə vasitəsilə həyata keçirilir. Eyni zamanda Türkiyəyə ən böyük sərmayə qoyan ölkələrdən biri də məhz Azərbaycandır. Naxçıvana Türkiyə ərazisindən qaz boru kəmərinin çəkilməsi, eyni zamanda Qars-Naxçıvan dəmir yolu xəttinin inşası ilə bağlı layihələr həyata keçirilir. Prezident İlham Əliyevin Türkiyəyə növbəti səfəri zamanı açılışı olan İğdır-Naxçıvan boru qaz kəməri Naxçıvanın enerji təhlükəsizliyini təmin edəcək. Eyni zamanda yaxın gələcəkdə Zəngəzur dəhlizi açıldıqdan sonra bu dəhliz vasitəsilə enerji resurslarının Naxçıvana çatdırılması həyata keçiriləcək.

Azərbaycan ilə Türkiyə arasında münasibətlər hər iki ölkənin rəhbərliyi tərəfindən həyata keçirilən məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatmaqda, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçməkdədir. Azərbaycan və Türkiyə arasında əlaqələrin belə yüksək səviyyədə inkişafı təkcə bu dövlətlərin yox, həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. Türkiyə-Azərbaycan əlaqələri bütün türk dünyasının birləşməsi, türkdilli dövlətlər arasında əlaqələrin inkişafı üçün çox mühümdür. İğdır-Naxçıvan qaz kəmərinin açılış mərasimi bir daha Türkiyə-Azərbaycan birliyini, dostluğunu, qardaşlığını göstərir.

Ankarada İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib: "Bir millət, iki dövlət" şüarı ilə formalaşan qardaşlıq münasibətlərimizdə hər sahədə böyük irəliləyişlər əldə edirik. Ölkələrimiz arasındakı münasibətlər müdafiədən ticarətə qədər çox geniş sahədə daim inkişaf edir. Şübhəsiz ki, bu əməkdaşlıqlarımız arasında bir çox layihə ilə taclandırdığımız enerji sektoru başda yer alır. Bəzilərinin xəyal hesab etdiyi Bakı-Tbilisi-Ceyhan xam neft boru kəməri kimi, "Şahdəniz" yatağının və Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəmərinin istismara verilməsi ilə enerji əməkdaşlığımızı daha irəliyə aparmağa nail olduq. Anadoludan keçən təbii qaz boru kəməri - TANAP vasitəsilə böyük miqdarda Azərbaycan qazının Avropaya çatdırılmasının sevincini yaşayırıq. Bu sahədə strateji və qeyri-adi layihələri həyata keçirməkdə Can Azərbaycan ilə tam uzlaşma içərisindəyik".




Son onilliklərdə bu əlaqələr daha da möhkəmlənib strateji xarakter alaraq, müasir dünyada unikal müttəfiqlik modelinə çevrilib. Bu müttəfiqlik regionun təhlükəsizliyi, sabitliyi və inkişafı üçün strateji əhəmiyyət daşıyır və qlobal proseslərə təsir göstərir. Azərbaycan və Türkiyə bir daha sübut ediblər ki, onların əməkdaşlığı uzunmüddətli strateji seçimdir və regionun gələcək inkişafında həlledici rol oynayacaq. Türkiyə dünya miqyasında Azərbaycana ən böyük dəstək verən ölkədir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Biz Azərbaycanın uğurları ilə fəxr edirik" sözü bütün dünyaya mesajdır.

Azərbaycan və Türkiyə enerji sahəsində həyata keçirdikləri nəhəng layihələrlə Avrasiyanın enerji xəritəsini dəyişir. Birgə neft və qaz nəqli layihələri Avropanın enerji təhlükəsizliyini

Respublika .- 2025.- 7 mart, (№ 51).- S.1;2.